# PEŞƏ TƏHSİLİNDƏ KEYFİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ



**Nəzakət Mehdiyeva,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun*
*Metodik Dəstək və Peşəkar İnkişaf Mərkəzinin direktoru,*
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*e-mail: nazakat.mehdiyeva@arti.edu.az*

**UOT:** 37

**Xülasə**. *Məqalədə peşə təhsili müəssisələrində tədrisin keyfiyyətini yüksəltmək üçün aparılan fəaliyyətlərin mahiyyətindən bəhs edilir. Peşə təhsilinə verilən tələblər, həmin tələblərə uyğun keyfiyyətli tədrisin təmin edilməsi, səmərəli təlim mühitinin yaradılması üçün vacib olan fəaliyyətlərin monitorinqinin təşkili məsələləri nəzərdən keçirilir. Həmçinin qiymətləndirmə məlumatlarını toplamaq üçün tətbiq edilən vasitələrdən bəziləri nümunə olaraq təqdim edilir.*

***Açar sözlər:*** *peşə təhsilinə verilən tələblər, keyfiyyətin idarə olunması, məlumatların toplanılması, keyfiyyət mədəniyyəti, qiymətləndirmə alətləri.*
***Key words:*** *vocational education requirements, quality management, data collection, quality culture, assessment tools.*
***Ключевые слова:*** *требования к профессиональному образованию, управление качеством, сбор данных, культура качества, инструменты оценки.*

Əmək bazarının müasir tələblərə uyğun peşə ixtisasına və biliklərinə malik şəxslərlə təmin edilməsi iqtisadiyyatın inkişafı üçün mühüm əhəmiyyətə malikdir. Bu baxımdan, peşə təhsilinin inkişafı dövlətin təhsil sahəsindəki prioritetlərindən biridir. Peşə təhsili iqtisadiyyatın müxtəlif sahələri üçün ayrı-ayrı peşələr üzrə zəruri səriştələrə malik mütəxəssislərin hazırlanmasını təmin etməklə yanaşı, həm də ümumi təhsili bitirən şəxslərin əmək bazarına ixtisassız girişinin qarşısını almağa kömək edir. Gənclərin əmək fəaliyyətinə hazırlıqlı başlaması sonradan onların karyera inkişafında mühüm rol oynayır. Müxtəlif peşə sahələrində səriştəli fəaliyyəti təmin etmək üçün peşə təhsilinin qarşısında böyük tələblər qoyulur. Bu tələblər peşə təhsilinin məzmununu, təhsilverənlərin peşəkarlığını, təhsilalanların səriştəli kadr kimi hazırlığını və digər bu tip məsələləri əhatə edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli, 85 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsilinin dövlət standartları"nda qeyd edilir ki, peşə təhsilinin məzmunu təhsilalanın, cəmiyyətin, dövlətin və ayrı-ayrı işəgötürənlərin maraq və tələblərini, milli və ümumbəşəri dəyərləri əks etdirməklə, təhsilalanların yaş, fizioloji və psixoloji xüsusiyyətləri nəzərə alınmaqla, onların dünyagörüşünün formalaşmasını, ömürboyu təhsil konsepsiyasına və əmək bazarının tələblərinə uyğun zəruri bilik, bacarıq və səriştələrə yiyələnməsini, müstəqil, ya-

radıcı şəxsiyyət kimi əmək fəaliyyətinə hazırlanmasını, cəmiyyətin faydalı və məhsuldar üzvünə çevrilməsini təmin edir. Peşə təhsilinin məzmunu "ömürboyu təhsil" prinsipinə əsasən, təhsilalanların bir sıra əsas səriştələrə malik olmasını tələb edir. Peşə təhsili alan məzunlardan ana dilində və xarici dildə şifahi və yazılı peşəkar ünsiyyət qurmaq, hesablama əməliyyatlarını yerinə yetirmək, məsələlərin həllində riyazi düşüncə nümayiş etdirmək, məlumatları əldə etmək, qiymətləndirmək və idarə etmək, informasiya-kommunikasiya texnologiyalarından təhlükəsiz şəkildə istifadə etmək, peşə etikasına riayət etmək, vaxtdan səmərəli istifadə etmək, şəxsi inkişaf və karyerasını planlaşdırmaq kimi bacarıqların formalaşdırılması tələb olunur. Bu tələblərə uyğun peşə sahiblərinin hazırlanması üçün peşə təhsili müəssisələrində tədrisin və ümumilikdə təhsilin keyfiyyətinə nəzarət və keyfiyyətin idarə olunması sistemini yaratmaq vacib şərtdir. Dünya təcrübəsinə əsaslanaraq onu deyə bilərik ki, keyfiyyətin təminatı üzrə tələblər üç hissəyə bölünür:

– ***daxili keyfiyyət təminatı;***
– ***xarici keyfiyyət təminatı;***
– ***keyfiyyət təminatı agentlikləri.***

Qeyd olunan sahələr bir-biri ilə bağlıdır və birlikdə keyfiyyətin təminatı çərçivəsini müəyyən edir.

*Bəs keyfiyyət nədir?* Keyfiyyəti necə idarə etmək mümkündür? Peşə təhsilində keyfiyyəti təmin etmək üçün hansı fəaliyyətlər həyata keçirilməlidir?

İstənilən sahədə *"keyfiyyət"* anlayışı müəyyən olunmuş standartlara uyğunluğu ifadə edir. Obyektin və ya sistemin vəziyyətini xarakterizə edən parametrlər standarta nə qədər yaxındırsa, keyfiyyət də bir o qədər yüksək hesab olunur. Bu baxımdan, təhsilin keyfiyyəti də əldə olunan nəticələrin əvvəlcədən təyin olunmuş meyarlara (standartlara) nisbəti ilə müəyyən olunur. Daha dəqiq desək, təhsil sahəsində *"keyfiyyət"* anlayışı təhsil müəssisəsinin təqdim etdiyi məhsul və xidmətlərin ehtiyaclara, standartlara cavabvermə imkanlarını özündə ehtiva edir.

Peşə təhsilində keyfiyyətin idarə olunması müvafiq ölçmə alətlərindən istifadə edərək keyfiyyətin sistemli şəkildə ölçülməsinə, fəaliyyətlərin əlaqələndirilməsinə, nəzarət sisteminin yaradılmasına əsaslanır və bir neçə komponenti əhatə edir: ***keyfiyyətin planlaşdırılması; keyfiyyətin idarəedilməsi; keyfiyyətin təminatı; keyfiyyətin qiymətləndirilməsi.***

**Keyfiyyətin planlaşdırılması** – təhsilin keyfiyyətinə dair strategiyanın, siyasətin və onlara müvafiq məqsəd və tələblərin formalaşdırılmasına yönəldilmiş fəaliyyətlərdir.

**Keyfiyyətin idarə olunması** – peşə təhsilinin bütün mərhələləri üzrə keyfiyyət yanaşmalarının tətbiqini nəzərdə tutan sistemli fəaliyyətdir və təhsilin keyfiyyət tələblərinə cavab verməsi üçün istifadə olunan fəaliyyət metodlarını ehtiva edir.

**Keyfiyyətin təminatı** – təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarına uyğunluğuna, təhsil müəssisəsində səmərəli və müasir tələblərə uyğun tədris mühitinin yaradılmasına və onun özünütəhlil əsasında davamlı inkişafının təmin olunmasına xidmət edən daxili qiymətləndirmə sistemidir.

**Keyfiyyətin qiymətləndirilməsi** – keyfiyyət tələblərinin yerinə yetirildiyinin mütəmadi yoxlanılması, keyfiyyət nəticələrinin dəlillərlə təsdiqlənməsidir.

Keyfiyyəti təmin edən peşə təhsili müəssisəsinin ölkədə və regionda əmək bazarının tələblərinə uyğun, səriştəyə əsaslanan və yüksək keyfiyyətli kadr hazırlığına imkan verən tədris proqramlarına malik qabaqcıl müəssisə olmaq şansı vardır. Həmçinin keyfiyyətli peşə təhsili müəssisəsi gənclərə daha yaxşı iş tapmaq imkanı verməklə yanaşı, qısamüddətli təlim kursları vasitəsilə böyüklərə öz peşələrində bilik və bacarıqlarını artırmaq, yeni peşə öyrənmək üçün əlverişli şərait yarada bilər.

Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstəricilərdən biri təhsilalanın təlim nəticələridir. Keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə isə nəticələrin obyektiv qiymətləndirilməsidir. *Bəs nəticələri kim qiymətləndirməli, nəticələr hansı vasitələrlə ölçülməlidir?*

Yuxarıda qeyd olunanlardan da anlaşıldığı kimi, peşə təhsili müəssisəsində keyfiyyətin ölçülməsi ya müəssisə daxilində, ya da müəssisədənkənar təşkilatlar tərəfindən aparıla bilər.

Hazırda ölkəmizdə müəssisədənkənar qiymətləndirmə Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən həyata keçirilir. Agentlik peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş bilik, bacarıq, səriştə və təcrübəni qiymətləndirir, tanınmasını həyata keçirir, həmçinin təhsil müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin qurulması və inkişaf etdirilməsi ilə bağlı tövsiyə və metodiki dəstək xidmətləri təşkil edir.

Müəssisədə daxili qüvvələrin iştirakı ilə təşkil edilən monitorinqlər daxili keyfiyyət təminatı üçün uğurlu məlumat toplama imkanıdır. Monitorinqlərin təşkili müəssisənin rəhbərliyi və əməkdaşlarından müəyyən səriştələr tələb edir. Monitorinq daxili idarəetmə prosesi olub, təhsilin keyfiyyətinə davamlı nəzarəti həyata keçirməyə imkan verir. O təhsil fəaliyyətinin güclü və zəif tərəflərini üzə çıxararaq gözlənilən nəticələri əldə etmək üçün praktiki təkliflərlə çıxış edə bilər. Monitorinq dedikdə, yalnız təkliflər deyil, problemlərin həll edilməsi üçün konkret addımların atılması da nəzərdə tutulur. Monitorinqin **üç** əsas komponenti var: ***məlumatın toplanılması, məlumatın təhlili, müvafiq tədbirlər.***

Təhsil keyfiyyətinin monitorinqi yalnız etibarlı məlumatların toplanılması sayəsində həyata keçirilə bilər. Belə məlumatların mənbəyi müxtəlif olur: ***qiymətləndirmə, hər hansı bir sorğunun və ya tədqiqatın nəticələri*** və s. Əsas məqsəd təhlil obyekti ola biləcək məlumatların toplanılmasıdır. Məlumatların təhlili elə həyata keçirilməlidir ki, bu təhlil problemlərin aradan qaldırılması üçün lazımi tədbirlərin yerinə yetirilməsinə kömək etsin. Bura etibarlı göstəricilərin (indikatorların) müəyyənləşdirilməsi aiddir. Bu göstəricilər (indikatorlar) empirik nəticələrdən ibarət reallığı əks etdirir. Monitorinq nəticəsində görülən tədbirlərə ***ehtiyat tədbirləri, islahedici tədbirlər və gücləndirici tədbirlər*** aiddir. Yalnız məlumat toplamaq və ya toplanılan məlumatları təhlil etmək tədqiqat baxımından əhəmiyyətli ola bilər. Lakin bu, idarəçilik baxımından nəticəsiz təcrübə sayılır. Hər bir proses konkret tədbirlərin həyata keçirilməsi ilə tamamlanmalıdır.

Peşə təhsilində keyfiyyət **dörd** əsas istiqamət üzrə qurulur: **"Nə öyrədilir?", "Kimə öyrədilir?", "Necə öyrədilir?"** və **"Kim öyrədir?"**. Deməli, məhz həmin istiqamətlər də monitorinq olunur. Bu istiqamətlər peşə təhsilində öyrədilən məzmunun müasir tələblərə uyğunlaşdırılmasını, peşə təhsilinə üz tutan öyrənənlərin təhsilə marağının təmin olunmasını, səmərəli öyrənmə mühitinin yaradılmasını, təhsilverənlərin peşəkarlıq səviyyəsinin artırılmasını tələb edir.

Həyata keçirilən fəaliyyətlər keyfiyyətin təmin olunmasına xidmət edərsə, müəssisədə keyfiyyət mədəniyyətini formalaşdırmaq mümkündür. Keyfiyyət mədəniyyətinin qurulması üçün təhsil müəssisəsində bir sıra məqamların olması vacibdir. Keyfiyyət mədəniyyətini formalaşdıran müəssisənin bütün personalı təhsilin keyfiyyəti probleminə vahid baxışa malik olur və bu konsepsiyanı hamı eyni cür başa düşür və qəbul edir. Hər kəs təhsilin keyfiyyətinin birbaşa onun üçün nə demək olduğunu və iş yerində yüksək keyfiyyətə necə nail olacağını başa düşür və öz sahəsində keyfiyyətə doğru hansı yollarla gedəcəyini bilir. Bütün əməkdaşlar məzunların hazırlığının nəticələri və onların əmək bazarına sürətli inteqrasiyasında maraqlı olur. Bir təhsil müəssisəsində sadalanan bu şərait bərqərar olubsa, deməli, müəssisə keyfiyyət mədəniyyətini formalaşdırmağa nail olub.

Keyfiyyətin təmin olunmasında əsas məqamlardan biri təhsil müəssisəsində həyata keçirilən bütün fəaliyyətləri bir-biri ilə əlaqələndirməkdir. Son məhsul səriştəli kadrların formalaşdırılması üçün bütün fəaliyyətlər səmərəli tədrisin təşkilinə xidmət edir. Səmərəli tədris isə səmərəli təlim mühitinin yaradılmasından başlayır. Bəs belə bir mühitin yaradılması üçün keyfiyyətə nəzarət alətləri necə olmalıdır? Alətləri müəyyən edərkən nəzərə almaq lazımdır ki, tədrisin səmərəliliyi təhsilverənlərin peşəkarlığından çox asılıdır. Odur ki, təhsilverənlərin dərs otaqlarında və emalatxanalarda yaratdığı öyrənmə mühitinin müşahidəsi tədrisin keyfiyyəti haqqında faydalı məlumatlar verə bilər. Tədrisin səmərəliliyini müəyyən etmək üçün müxtəlif alətlərdən istifadə oluna bilər. Həmin alətlərdən birini təqdim edirik:

| Dərs müşahidəsi | Bütün hallarda | Bəzi hallarda | Heç bir halda |
|---|---|---|---|
| Əvvəl öyrənilmiş mövzulara istinad edilir. | . | | |
| Slaydlar, audio-vizual materiallar, lövhələr, dərsliklər və s. tədris vasitələrindən istifadə edilir. | | | |
| Vaxtdan səmərəli istifadə olunur. | | | |
| Tapşırıqlar aydın izah edilir. | | | |
| Bütün şagirdlər öyrənmə prosesinə cəlb edilir. | | | |
| Öyrənənlər yoldaşlarını diqqətlə dinləyirlər. | | | |
| Öyrənənlər tapşırıqların həlli zamanı əməkdaşlıq edirlər. | | | |
| Verilən sual və tapşırıqlar öyrənənləri məsələni araşdırmağa və düşünməyə yönəldir. | | | |
| Öyrənmə prosesində müəllim öyrənənlərin, öyrənənlər bir-birinin fəaliyyətinə rəy verir. | | | |

## Tədris prosesinin qiymətləndirmə anketi

Prosesin səmərəliliyi haqqında məlumat toplamaq üçün faydalı alətlərdən biri də tələbələrin özünüqiymətləndirmə vərəqləridir. Özünüqiymətləndirmə şəxsin özünü, öz imkanlarını, bacarıqlarını, özünün başqa şəxslərlə münasibətdə yerini qiymətləndirməsidir. Özünüqiymətləndirmənin nəticəsinə görə tələbənin müəssisəyə, təhsilverənlərə qarşı münasibəti haqqında məlumatları sistemləşdirmək olar.

| |
|---|
| **1. Öyrənmə fəaliyyətim məni qane edirmi? Əgər cavabınız 1 və ya 2dirsə, onda 2 və 3-cü sualları cavablandırın. Əgər cavabınız 3 və ya 4-dürsə, onda 4-cü sual ilə davam edin.** |
| 1. Heç qane etmir     2. Qismən qane edir     3. Yaxşıdır     4. Çox yaxşıdır |
| |
| **2. Çətinlik çəkdiyim fəaliyyətlər:** |
| A)     B)     C)     D) |
| |
| **3. Mənfi nəticənizin səbəbləri nədir?** |
| A) İzahların çoxunu başa düşmürəm. |
| B)Diqqətim asanlıqla yayınır. |
| C)Tapşırıqların mənə uyğun olmadığını düşünürəm. |
| D) Tapşırıqları izləməyə çalışıram, amma sonra marağım itir. |
| G) Mən oxuyuram, amma özümü yetərincə dərsə həsr etmirəm. |
| E) Digər. |
| |
| **4. Ən çox bəyəndiyim fəaliyyətlər bunlardır:** |
| 1.     2.     3.     4. |
| **5. Orta hesabla hər gün təhsilə (ev tapşırıqları da daxil olmaqla) nə qədər vaxt ayırırsınız?** |
| 1. Bir saata qədər. |
| 2. İki saatdan az. |
| 3. İki saatdan çox. |
| 4. Heç oxumaq istəmirəm . |
| |
| **6. Məktəbdənkənar problemlərimin fikrimi toplamağıma və irəliləyişimə mənfi təsir göstərdiyinin fərqindəyəm?** |
| Bəli     Xeyr |
| |
| **7. İnkişafımdakı boşluqları necə aradan qaldırmaq olar? (x ilə işarələyin)** |
| 1. Dərsə daha çox vaxt və diqqət ayırmalıyam. |
| 2. Əlavə dərslərə ehtiyacım var. |
| 3. Yenidən iradəmi toplamalı və rahatlıq tapmalıyam. |
| 4. Başqalarından bunu necə etdiyini öyrənməliyəm. |
| 5. Digər. |

| |
|---|
| **8. Sinif yoldaşları ilə münasibətim:** |
| a) çox yaxşı b) yaxşı c) orta d) yaxşı deyil. |
| 9. **Müəllimlərlə, ustalarla münasibətim:**<br>a) çox yaxşı b) yaxşı c)orta d) yaxşı deyil |
| **10. Müəllimlərlə, ustalarla münasibətim öyrənməyimə necə təsir edir?** |
| 1. Öyrənməyə münasibətin heç bir təsiri yoxdur. |
| 2. Yaxşı münasibətim olmayan yerinə müəllimin-ustanın tapşırıqlarını yetirmək mənə xoş deyil. |
| 3. Ən yaxşı münasibətim olan müəllimin ustanın dərsi belə cansıxıcı ola bilər. |

Müəllim və ustaların qiymətləndirməni təşkil etməklə bağlı daima problemləri olur və bu proses haqqında məlumat toplamaq müəssisənin rəhbərliyinə işləri tənzimləmək üçün faydalı ola bilər.

**Tələbənin qiymətləndirməsinin təşkili ilə bağlı müəllimlərin özünüqiymətləndirmə anketi**

| | |
|---|---|
| **Müəllim:**<br>**Mövzu: Tələbələrin təlim nəticələrinin qiymətləndirilməsi** | |
| | |
| Təsdiqlədiyiniz bəndi qarşıdakı sütunda (+) işarələməklə qeyd edin. | |
| | QEYDLƏR |
| | |
| **A)Tələbələrin qiymətləndirmə nəticələrinin yoxlanılması** | |
| 1. Qiymətləndirmə təlim prosesinin vacib bir addımıdır. | |
| 2. Haqqı ödənməyən fəaliyyətdir. | |
| 3. Öhdəliklərimin bir hissəsidir. | |
| 4. Digər. | |
| | |
| **B) Qiymətləndirmənin vaxtı** | |
| 1. Tələbələrimə qiymətləndirmənin tarixini və mövzusunu vaxtında deyirəm. | |
| 2. Onlara qiymətləndirmənin keçiriləcəyi vaxtı əvvəldən demirəm. | |
| 3. Qiymətləndirmədən asılı olmayaraq vaxtında oxumaq tələbələrimin borcudur. | |
| 4. Digər. | |
| | |
| **C) Qiymətləndirmə vasitələrinin hazırlanması** | |
| 1. Əvvəlki illərdə hazırladığım materiallardan istifadə edirəm. | |
| 2. Dərsliklərdə verilən materiallardan istifadə edirəm. | |
| 3. Vasitələri həmkarlarımla birlikdə hazırlayıram. | |
| 4. Özüm hazırlayıram. | |
| 5. Digər. | |
| **D) Qiymətləndirmə vasitəsinin forması** | |
| 1. əsasən bir növ vasitə (yalnız şifahi, yalnız yazılı, yalnız qrafik) istifadə edirəm. | |
| 2. Üsula, tipə, quruluşa, həcmə görə fərqli vasitələrdən istifadə edirəm. | |
| 3. Yazılı qiymətləndirmə vasitələrinə üstünlük verirəm. | |
| 4. Şifahi vasitələrə üstünlük verirəm. | |
| 5. Digər. | |
| **E) Nəticələrin təhlili mənə necə təsir edir?** | |
| 1. Dərhal məmnunluq-narazılıq hissi yaradır. | |
| 2. Bu barədə çox düşünmürəm, işimə davam edirəm. | |
| 3. Nəticələri növbəti planlaşdırmalar üçün istifadə edirəm. | |
| 4. Həmkarlarımla nəticələri müzakirə edirəm (sinif iclası və s.) | |
| 5. Digər. | |
| **F) Qiymətləndirmənin nəticələri qeyri-qənaətbəxş olduqda** | |
| 1. Nəticəyə əhəmiyyət vermədən tədris planına uyğun davam edirəm. | |
| 2. Eyni mövzunu fərqli vasitələrdən istifadə edərək yenidən yoxlayıram. | |
| 3. Fərqli bir metoddan istifadə edərək mövzunu yenidən nəzərdən keçirirəm. | |
| 4. Tələbələrlə uğursuzluqlarının səbəblərini təhlil edirəm. | |

| | |
|---|---|
| 5 . Digər. | |
| | |
| **G) Qiymətləndirmə nəticələri çox yüksək olduqda** | |
| 1. Vasitələrin effektivliyinə şübhəm yaranır. | |
| 2. Bütün tələbələrimə məmnunluğumu bildirirəm. | |
| 3. Nəticələrlə qane oluram. | |
| 4. Əvvəlki qiymətləndirmələrlə müqayisə edib və fərdi irəliləyişləri qeyd edirəm. | |
| 5. Digər. | |
| **İ) Nəticələri məqbul olan bir qiymətləndirmədən sonra** | |
| 1. Əldə edilmiş nəticəyə görə tələbələrimi mükafatlandırıram. | |
| 2. Növbəti mövzuları planlaşdırmaq üçün ehtiyac olan bilik və bacarıqlar haqqında düşünürəm. | |
| 3. Vaxt itirmirəm və tədris planı ilə məşğul oluram. | |
| 4. Digər. | |
| | |
| **J) Qiymətləndirmə nəticələrindən tələbə və ya valideynlər tərəfindən şikayət olunduqda** | |
| 1. Səlahiyyətlərimi bildirirəm və müzakirə etməyə imkan vermirəm. | |
| 2. Mübahisədən çəkinmək üçün nəticəni dəyişdirirəm. | |
| 3. Vasitələrdə problem olduğu təqdirdə nəticələrdə dəyişiklik edirəm. | |
| 4. Vasitələrdən əmin olduğum halda, qiymətləndirməni aydın şəkildə əsaslandırıram. | |
| 5. Digər. | |

**Nəticə.** Qiymətləndirmələr nəticəsində toplanılan məlumatlardan təhsil müəssisəsi problemlərin həlli, yeniliklərin tətbiqi prosesində istifadə edib mühüm irəliləyişlərə nail ola bilər. Əsas məsələ qiymətləndirməni təşkil etmək, sorğu keçirtmək yox, nəticələrin təhlilindən əldə edilən məlumatlar əsasında ehtiyacların müəyyənləşdirilməsi və yeni qərarların qəbul edilməsidir. Əgər hər hansı bir sahə ilə bağlı problemlərin olduğu görünürsə, o zaman ya ümumi dəstəkləyici tədbirlərə başlamaq, ya da həmin problemi xırda detallarına qədər çözmək üçün qiymətləndirməni daha dərin və dar şəkildə davam etdirmək lazımdır. Hər bir qiymətləndirmə məlumatı özündən sonra yeni bir qiymətləndirmənin aparılmasını zəruri edir. Odur ki, qiymətləndirmələr dövri xarakter daşıyır və mütəmadi olaraq inkişaf üçün hərəkətverici rolu oynayır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli, 85 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsilinin dövlət standartları".
https://e-qanun.az/framework/41741

2. Taking IVET more attractive for learners. Results of the work undertaken by the thematic group on Making VET more attractive. European Network for Quality Assurance in VET, 2009.

3. Handbook for VET providers. Supporting internal quality management and quality culture. 2015.
https://www.cedefop.europa.eu/files/3068_en.pdf

4. Quality assurance in vocational education and training a collection of articles European Training Foundation, February, 2014.
https://www.etf.europa.eu/sites/default/files/m/270970490A6E9327C1257CA800407038_Quality%20assurance%20in%20VET.pdf

5. Vocational education and training. Toward an integrated and high-performing vet system: Ensuring quality education and service delivery in the presov region. Summary report Year 2.
https://documents1.worldbank.org/curated/en/099040001252241349/pdf/P17343700ac6f60b60ba2604aad2d8c8897.pdf

N.Mehdiyeva

## Quality assessment in vocational education

**Abstract**

The article deals with the essence of the activities carried out to improve the quality of education in vocational education institutions. The requirements for vocational education, the provision of quality education in accordance with those requirements, and the organization of monitoring activities that are important for creating an effective learning environment are reviewed. Some tools used to collect evaluation data are also submitted as an example.

Н.Мехтиева

## Оценивание качества в профессиональном образовании

**Аннотация**

В статье говорится о сущности проводимых мероприятий по повышению качества образования в учреждениях профессионального образования. Рассмотрены требования к профессиональному образованию, обеспечение качественного образования в соответствии с этими требованиями и организация мониторинговых мероприятий, важных для создания эффективной учебной среды. Также приведены некоторые примеры инструментов, используемых для сбора оценочных данных.